


DÜYMƏCİK

Biri vardı, biri yoxdu, bir arvad vardı. Bu arvadın uşağı yoxdu. Arvad çox istəyirdi ki, uşağı olsun amma bilmirdi onu hardan tapsın. Günlərin birində arvad bir falçının yanına gedib dedi: «Mən çox istəyirəm ki, uşağım olsun. Bəlkə sən mənə deyə bilərsən, uşağı hardan alım?»

Falçı cavab verdi:

- Yaxşı, sənin dərdinə çarə edərəm! Al, bu arpa dənəsini götür. Ancaq bu, tarlalara səpilən və ya toyuqlara verilən arpa deyil, bu dənəni bir dibçəkdəək, gör nə görərsən!..

Arvad falçı qarıya:

- Çox sağ ol! dedi, təşəkkür edib pul verdi və evinə qayıtdı. Arvad gəlib, falçının dediyi kimi arpa dənəsini dibçəkdə əkdi. Dibçəkdə həmin saat laləyə bənzər iri və qəşəng bir çiçək göyərdi. Ancaq onun ləçəkləri hələ açılmamışdı, qönçə idi.

Arvad:

- Nə gözəl çiçəkdir! deyib sarımtıl-qırmızı gözəl ləçəkləri öpdü. Ancaq arvad hələ ləçəkləri öpüb qurtarmamışdı ki, çiçəyin içində nəsə şıqqıldadı və çiçək həmin saat açıldı. İndi məlum oldu ki, bu doğrudan da, əsl lalə çiçəyi imiş. Çiçəyin kasacığının içindəki yaşıl döşəkçənin üstündə düymə boyda, xırdaca, qəşəng bir qızcığaz oturmuşdu. Qızın adını Düyməcik qoydular.

Onun işıldayan qoz qabığından beşiyi vardı. Döşəkçəsi qərənfil, yorğanı qızılgülün ləçəyindən idi. Qız gecələr beşiyində yatır, gündüzlər də stolun üstündə oynayırdı. Arvad stolun üstünə bir boşqab qoyub, içinə su tökmüş, boşqaba çiçəklər düzmüşdü. Çiçəklərin saplaqları suyun içində, kasacıqları və yarpaqları boşqabın qıraqlarında idi. Arvad suyun üzünə iri bir lalə ləçəyi atdı. Düyməcik tez-tez bu ləçəyin üstündə oturub, boşqabın bu qırağından o qırağına üzürdü. İki ağ at tükü onun avarları idi. Bütün bunlar çox gözəldi! Düyməcik mahnı da oxuya bilirdi. O, elə gözəl və incə səslə oxuyurdu ki, belə səsi dünyada heç kim eşitməyib.

Bir gecə Düyməcik öz qəşəng beşiyində uzanmışdı. Birdən pəncərənin sınıq gözündən yekə, yaş və iyrənc bir qurbağa hoppanıb içəri girdi. Qurbağa stolun üstünə sıçradı, elə burada düyməcik qızılgül ləçəyinin altında yatmışdı.

Qurbağa quruldaya-quruldaya dedi:

- Bax, bu qız mənim oğlum üçün lap yaxşı arvad olar!

O, düyməciyi qoz qabığı ilə bərabər qapdı və pəncərədən bağa hoppandı. Bağın içindən böyük, enli bir çay axırdı. Çayın sahilləri palçıqlı və bataqlıq idi. Qurbağa burada mamırların içində öz oğlu ilə bir yerdə yaşayırdı. Ay aman! Qurbağanın oğlu nə kifir, nə iyrəncdi! Lap anası idi ki, durmuşdu! Qurbağanın oğlu qoz qabığının içindəki gözəl qızı görəndə quruldadı: «Коакс, коакс, брекке-кекекс!»

Qoca qurbağa onun səsini kəsib dedi:

- Yavaş, yoxsa qız oyanar və bizdən qaçar. Axı o, qu tükündən də yüngüldür. Gəl onu çayın ortasında enli bir su zanbağının yarpağı üstünə qoyaq. Belə xırdaca bir qıza bu yarpaq lap ada kimi görünər. Qız bu yarpağın üstündən qaça bilməz. O vaxta qədər də biz mamırların içində rahat bir yuva düzəldərik və siz orada yaşayarsınız.

Çayın içində çoxlu su zanbaqları bitmişdi. Onların enli yaşıl yarpaqları suyun üzündə üzürdü.





Ən böyük yarpaq suyun qırağından çox uzaqda idi. Qoca qurbağa həmin bu yarpağın yanına üzüb, qoz qabığını Düyməciklə bir yerdə yarpağın üstünə qoydu. Yazıq qızcığaz səhər oyanıb hara düşdüyünü gördükdə acı-acı ağladı. Onun dörd bir yanı göz işlədikcə su idi. Sahil lap uzaqda idi, güclə görünürdü.

Qoca qurbağa mamırların içində oturub, evini qamış və sarı su zanbağı ləçəkləri ilə bəzəyirdi. O istəyirdi ki, gələcək gəlinini sevindirsin. Qurbağa toya hazırlaşıb qurtarandan sonra kifir oğlu ilə üzə-üzə Düyməciyin oturduğu yarpağın yanına gəldi ki, onun qəşəng beşiyini götürüb aparsın və gələcək ərarvadın yataq otağına qoysun. Qoca qurbağa yarpağa yaxınlaşıb, qızın qabağında suyun içinə yastılandı və dedi:

- Bax, bu mənim oğlumdur! Sənin ərin olacaq. Siz onunla burada, mamırların içində lap gözəl yaşayacaqsınız.

Qurbağanın oğlu quruldadı:

- Коакс-коакс, брекке-ке-кекс!

Qurbağalar qızın qəşəng çarpayısını götürdülər, harasa üzüb getdilər. Düyməcik yaşıl yarpağın üstündə tək oturub acı-acı ağlayırdı. O, iyrənc qurbağanın yanında yaşamağı və onun kifir oğluna ərə getməyi heç istəmirdi. Yarpağın altında suyun içində üzən xırdaca balıqlar qurbağanı görüb, sözlərini də eşitmişdilər. İndi onlar Düyməciyə tamaşa etmək üçün başqalarını sudan çıxarmışdılar. Onlar Düyməciyi görən kimi çox heyfsləndilər ki, belə qəşəng bir qız iyrənc qurbağanın yanında yaşamalı olacaq. Balıqlar dedilər: «Yox, qoymarıq!» Onlar Düyməciyin oturduğu ağ zanbağın yarpağının yanına üzüb, onun yaşıl bəndəmini dişləyib qopartdılar. Yarpaq Düyməciklə çayaşağı yeyin-yeyin üzüb getməyə başladı, indi daha qurbağa qızcığaza çata bilməzdi.

Düyməcik yarpağın üstündə üzə-üzə uzaqlaşıb gedirdi. Kollara qonmuş quşcuğazlar ona baxıb mahnı oxuyurdular: «Gör nə qəşəng qızcığazdır!» Yarpaq üzə-üzə uzaqlaşıb gedirdi, axırda Düyməcik yad yerlərə gedib çıxdı.

Yol uzunu gözəl ağ bir kəpənək həmişə Düyməciyin dövrəsində hərlənirdi; axırda o gəlib yarpağın üstünə qondu, qızcığaz onun çox xoşuna gəlmişdi. Düyməcik də sevinirdi ki, iyrənc qurbağa gəlib ona çata bilməyəcək, sevinirdi ki, hər tərəf belə gözəldir, günün altında su saf qızıl kimi parıldayır. Düyməcik kəmərini açıb bir ucunu kəpənəyin boynuna saldı, o biri ucunu yarpağa bərkitdi. Yarpaq daha da iti üzməyə başladı.

Onun yanından bir mayböcəyi ötüb keçirdi. O, qızı görən kimi, əlini atıb onun incə belindən yapışdı və uçub bir ağaca qondu. Ağ zanbağın yarpağı isə üzüb getdi, kəpənək də onun üzərində uçurdu, axı o yarpağa bağlanmışdı və ayrılıb gedə bilmirdi.

Mayböcəyi qızı qapıb ağaca qonanda, yazıq Düyməcik yaman qorxdu. Ancaq o, özündən çox yarpağa bağladığı qəşəng ağ kəpənək üçün qorxurdu. Qız bilirdi ki, kəpənək kəməri açа bilməsə, acından öləcək. Mayböcəyi bunu heç ağlına da gətirmirdi. O, Düyməciklə ən iri bir yarpağın üstünə qondu, Düyməciyi şirin çiçək şərbətinə qonaq edib dedi ki, qız mayböcəyinə heç bənzəməsə də, çox gözəldir. Sonra həmin ağacda yaşayan başqa mayböcəkləri də uçub onlara qonaq gəlidlər. Onlar düyməciyi təpədən-dırnağa qədər gözdən keçirdilər. Qız-böcəklər incə bığlarını oynada-oynada dedilər:

- Vay, vay, onun ikicə ayağı var! Gör nə kifirdir!
- A, onun heç bığları da yoxdur ki!

Bütün qadın böcəklər də təsdiq edib dedilər:



- Bir gör necə beli var! Vay, o кi lap adama oxşayır! Gör nə кifirdir!

Əslində Düyməcık çox qəşəngdi. Onu ağaca gətirib gələn mayböcəyi də bu fiкirdə idi. Ancaq bütün başqa böcəкlər Düyməciyin кifir olduğunu söyləyəndə, o böcəк də deyilənlərə inandı və qızı daha öz yanında saxlamadı. Öz-özünə dedi кi, qoy hara gedir getsin. Mayböcəyi Düyməciyi götürüb uçdu, yerə qondu və onu bir çobanyastığı çiçəyin üstünə qoydu. Düyməcık acı-acı ağlamağa başladı: gör nə кifirdir кi, heç mayböcəкləri də onu yanlarında saxlamaq istəmədilər. Amma, o əslində çox gözəl və qəşəng bir qız idi: çəhrayı qızılgül ləçəyi кimi incə və qəşəngdi.

Bütün yayı yazıq Düyməcık böyüк meşənin içində təк-tənha yaşadı. O özünə xırdaca otlardan кiçiк bir çarpayı hörüb, ayıpəncəsi yarpağının altından asdı кi, yağış yağanda islanmasın. Düyməcık şirin çiçəк tozcuqlarından yeyir və hər səhər yarpaqların üstündən yığdığı şeh damcılarından içirdi. Beləliklə, yay qurtardı, payız da ötüb кeçirdi. Uzun, soyuq qış yaxınlaşırdı. Öz nəğmələri ilə Düyməciyi çox sevindirən bütün quşcuğazlar isti ölкələrə uçub getdilər, çiçəкlər saraldı-soldu, yarpaqlar töкüldü;



Düyməciyin yaşadığı iri ayıpəncəsi kolunun da yarpağı saraldı, qurudu və boru kimi buruldu. Düyməciyin paltarı cırılıb dağılmışdı, o həmişə soyuqdan əsirdi. Axı o, çox incə və xırdaca idi. Belə olsa, tezliklə donacaqdı. Qar yağmağa başladı. Hər qar dənəsi Düyməciyə elə iri görünürdü ki, elə bil bir kürək qar idi: axı biz yekəyik, Düyməciyin isə, vur-tut bir düymə boyu vardı. O, bir quru yarpağa bürünmək istədi, amma yarpaq ovulub tökküldü və yazıq qızcığaz soyuqdan əsməyə başladı.



Bir dəfəDüyməcik meşədən çıxıb böyük bir tarlaya gəldi. Taxılı çoxdan biçmişdilər və donmuş torpaqda yalnız çılpaq quru saman çöpləri qalmışdı. Düyməcik onların arası ilə elə gedirdi ki, deyəsən qalın bir meşədir, soyuqdan da bərk üşüyürdü. Axırda gəlib, ağzı quru otlarla örtülmüş bir yuvaya çatdı. Burada, isti yuvada, bolluq içində bir çöl siçanı olurdu. Onun anbarları ağzına qədər taxıl ilə dolu idi. Mətbəxində və zirzəmisində yeməli şeylər aşıb-daşırdı. Yazıq Düyməcik dilənçi kimi yuvanın ağzında durub, heç olmasa bir qırıq arpa dənəsi istədi, iki gün idi ki, yazıq qızcığaz heç nə yeməmişdi.

Mehriban bir qarı olan çöl siçanı ona dedi:

- Ay yazıq qızcığaz! Tez ol bura gəl, yanımda isin və yemək ye.

Düyməcik qoca siçana o qədər xoş gəldi ki, siçan ona belə dedi:

- Qışı mənim yanımda qal, ancaq bax, mənim otaqlarımı yaxşıca yığışdır, mənə çoxlu nağıl danış, mən nağılı yaman xoşlayıram.

Düyməcik siçanın yanında qaldı. Mehriban qoca siçan nə buyururdusa, qızcığaz onun dediyini edirdi. Orada qızın günü xoş keçirdi.

Bir dəfə çöl siçanı ona dedi:

- Bax, bu yaxında bizə bir qonaq gələcək. Qonşum həftədə bir dəfə yanıma gəlir. O məndən də yaxşı dolanır. İri bir evdə yaşayır və qara məxmərdən çox qəşəng kürkü var. Bəxtin açılsa, ona ərə gedə bilsən, onda lap yaxşı dolanarsan. Amma onun gözləri kordur. Sən bildiyin ən gözəl nağılları ona danışmalısan!

Ancaq Düyməcik heç də onun qonşusuna ərə getmək istəmirdi, axı bu qonşu köstəbək idi. Çox keçmədi ki, köstəbək, əynində qara məxmər kürkü, çöl siçanına qonaq gəldi.

Çöl siçanı Düyməciyə dedi:

- O çox hörmətli, varlı, biliklidir. Evi mənim yuvamdan iyirmi dəfə böyükdür. Ancaq onun günəşdən və çiçəklərdən zəhləsi gedir, onları iyrənc hesab edir, axı onları heç vaxt görməyib.

Siçan Düyməciyə buyurdu ki, mahnı oxusun. Düyməcik də iki mahnı oxudu. Həm də elə yaxşı oxudu ki, onun gözəl səsini çox bəyənən köstəbək o saat ona vuruldu. Ancaq heç bir söz demədi, axı o, yekə kişiydi.

Bir azdan sonra köstəbək öz evindən çöl siçanının yuvasına uzun yeraltı bir yol qazdı və çöl siçanı ilə Düyməciyə, kefləri istədikdə, bu dəhlizdə gəzməyə icazə verdi. Lakin onları xəbərdar etdi ki, orda ölü quşa rast gəlsələr, qorxmasınlar. Bu, ləlәkləri və dimdiyi olan əsl quş idi. Yəqin ki, lap bu yaxınlarda, qışın əvvəlində ölmüş və köstəbəyin yeraltı yol qazdığı həmin yerdə üstünü qar və torpaq basmışdı.

Köstəbək dişinə bir parça çürük ağac aldı, axı çürük ağac qaranlıqda işıldayır. Köstəbək qabağa düşüb uzun yeraltı dəhlizi işıqlandırdı. Onlar ölü quşun düşüb qaldığı yerə çatanda, köstəbək burnunu torpaq tavana dürtüb, orada iri bir dəlik açdı. Bu



dəlikdən gün işığı düşdü.

Düyməcik ölü qaranquşu gördü. Onun qəşəng qanadları bədəninə bərk qısılmışdı, quş başını və ayaqlarını yığmışdı, tüklərin içində görünmürdü. Yəqin ki, yazıq quş soyuqdan ölmüşdü. Düyməciyin ona çox yazığı gəldi, axı o, bütün yayı öz nəğmələri ilə onun könlünü alan xırdaca quşları çox sevirdi. Köstəbək qısa pəncələri ilə ölü qaranquşu itələyib dedi:

- Axır ki, cibbiltisi kəsildi! Dünyada quş olmaqdan pis şey yoxdur. Şükür olsun ki, mənim balalarım bədbəxt olmayacaqlar. Quşlar elə bircə cib-cib cibbildəməyi bilirlər. Odur ki, qış gələndə acından ölürlər.

Çöl siçanı ona cavab verdi:

- Yaxşı deyirsiniz, siz çox ağıllısınız. Siz deyənə mən də lap razıyam. Qış gələndə cibbildəməyin xeyri nədir! Mahnı oxumaqla qarın doymaz, cibbildəməklə də isinmək olmaz, buna görə də quşlar soyuqdan və acından ölürlər. Bütün yoxsul və yaxşı adamların qismәti belədir.

Düyməcik heç bir söz demədi, amma köstəbəklə siçan arxalarını çevirib gedəndə qaranquşa sarı əyilib onun tüklərini araladı və xırdaca, yumulu gözlərindən öpdü.

Düyməcik belə fikirləşdi: «Bəlkə, bu elə həmin o qaranquşdur



ki, bütün yayı gözəl-gözəl mahnılar oxuyurdu. Bu əziz, gözəl quşcuğaz məni nə qədər sevindirmişdi!»

Sonra köstəbək yenə bir dəlik açdı, burdan gün işığı düşdü, o, yanındakı xanımları evlərinə ötürdü. Düyməcik heç yata bilmədi. O, yatağından qalxıb, xırdaca quru otlardan böyük, gözəl bir yorğan hördü, sonra dəhlizə girib, ölü quşun üstünü örtdü. Sonra siçanın yuvasından pambıq kimi yüngül çiçək qırıntılarını gətirib qaranquşun üstünə tökdü ki, quşcuğaz nəm torpaqda üşüməsin.

Düyməcik dedi:

- Salamat qal, gözəl quşcuğaz! Salamat qal, yayda, hələ ağaclar yaşıl olanda və günəş bizə mehribanlıqla işıq saçanda mənə elə gözəl nəğmələr oxuduğun üçün çox sağ ol!

Sonra Dyüməcik xırdaca başını quşcuğazın sinəsinə sarı əydi və «Tıp! Tıp!» səslərini eşidib dikəsindi. Qaranquşun ürəyi döyünürdü. Belə mə'lum oldu ki, qaranquş heç ölməyib, ancaq soyuqdan bədəni donubmuş, indi isə isinib, cana gəldi.

Payızda bütün qaranquşlar uçub isti ölkələrə gedirlər. Əgər bir qaranquş gecikib uçmasa,onda ölü kimi donub yerə yıxılır və üstünü də soyuq qar basır.

Düyməcik qorxudan titrəyirdi: axı qaranquş bu xırdaca qızcığaza lap nəhəng kimi görünürdü. Amma qız özünə ürək-dirək verdi, qaranquşun üstünü yaxşı-yaxşı örtüb-basdırdı və başına bir nanə yarpağı qoydu. Düyməcik özü də həmişə üstünə bu yarpaqdan salırdı.

O biri gecə Düyməcik yenə də qaranquşun yanına gizlincə gəldi. İndi yazıq quşcuğaz lap dirilmişdi, ancaq hələ çox zəifdi, gözlərini azca açıb Düyməciyə baxdı. Düyməcik fənər əvəzinə əlində bir çürük ağac parçası tutub, onun qabağında durmuşdu.

Azarlı qaranquş civildəyə-civildəyə dedi:

- Çox sağ ol, mehriban qızcığaz! Mən elə yaxşı isindim ki! Tezlikle lap sağalarm və yenə də günəşə sarı uçaram.

Düyməcik dedi:

- Ah, indi çöldə şaxtadır, qar yağır! Yaxşısı budur, bu isti yatağında uzan, mən sənə qulluq edərəm.

Düyməcik bir çiçək kasacığında qaranquşa su gətirdi. Quş sudan içib, Düyməciyə danışdı ki, o, bir dəfə uçanda, qanadı tikan koluna toxunub yaralanıb, buna görə də o biri qaranquşlarla isti ölkələrə uçub gedə bilməyib. Soyuqlar düşəndə isə bədəni üyüşmüş və o, yerə yıxılmışdı, bundan sonra onun yadına heç bir şey gəlmirdi; heç özü də bilmirdi ki, bura necə gəlib düşmüşdür.

Bütün qışı qaranquş yeraltı dəhlizdə keçirdi. Düyməcik də ona qulluq edirdi. O, quşa yaman isinişmişdi. Çöl siçanı ilə köstəbəyin heç nədən xəbərləri yox idi, onlar qaranquşdan iyrənirdilər və heç o tərəfə keçmirdilər.

Bahar gəlib, günəş torpağı qızdıran kimi qaranquş Düyməcikle salamatlaşdı. Qız tavanda, köstəbəyin dəliyi örtdüyü yerdə bir dəlik açdı. Qaranlıq dəhlizə gün işığı düşdü. Qaranquş Düyməcikdən soruşdu: belinə minib onunla bir yerdə uçub yaşıl meşəyə getmək istəyirmi? Ancaq qızcığaz qoca siçanını qoyub getmək istəmirdi. Bilirdi ki, bundan çox inciyər.

Düyməcik qaranquşa dedi:



- Yox, mən sənlə uçub gedə bilmərəm.

Qaranquş civildəyə-civildəyə dedi:

- Salamat qal, ey mehriban gözəl qız, salamat qal! Sonra uçub açıq havaya çıxdı.

Quş:

«Civ-civ! Civ-civ» eləyib, yaşıl meşəyə uçdu.

Düyməcik çox darıxırdı. Axı onu heç çıxıb gündə qızınmağa qoymurdular. Çöl siçanının yuvasının dövrəsindəki tarlada taxıl elə boy atmışdı ki, o, xırdaca qızcığaza yekə bir meşə kimi göründü.

Bir dəfə çöl siçanı Düyməciyə dedi:

- Sən daha nişanlısan, bizim qonşu sənə elçi düşüb. Ay yazaq qızcığaz, bir gör bəxtin necə açıldı! İndi gərək özünə cehiz tikəsən. Yun üst paltarların və ipək alt paltarların olsun. Köstəbəyə arvad olanda sənin gərək hər



bir şeyin bol olsun.

Düyməcik bütün günü işləyib yun əyirdi; siçan da dörd toxucu hörümçəyi qulluqçu tutmuşdu. Onlar da gecə-gündüz toxuyurdular. Köstəbək hər axşam onlara qonaq gəlirdi. Özü də hey çərənləyirdi: daha yayın qurtarmağına az qalıb. Daha gün işıq saçmayacaq, bu lap yaxşıdır, onsuz da torpaq daş kimi bərkimişdir. Yay qurtaranda isə toylarını edəcəkdir.

Amma Düyməcik buna heç sevinmirdi. Qız bu zəhlətökən köstəbəyi heç bir damcı da sevmirdi. Hər səhər gün doğanda və hər axşam gün batanda Düyməcik gizlincə siçan yuvasının ağzına cıxırdı. Külək sünbülləri aralayanda o, göyün bir parçasını görürdü. Onda Düyməcik fikirləşirdi: «Ah, çöl necə gözəl, necə işıqlıdır!» O, əziz qaranquşu çox görmək istəyirdi. Ancaq quş heç bir yerdə görünmürdü. Yəqin ki, uzaqlara, yaşıl meşəyə uçub getmişdi.

Payız gələndə Düyməciyin bütün cehizi hazır oldu.

Bir dəfə çöl siçanı Dyüməciyə dedi:

- Bir aydan sonra toyun olacaq.

Düyməcik ağlayıb dedi ki, zəhlətökən köstəbəyə getmək istəmir.

Çöl siçanı acıqlı-acıqlı dedi:

- Bu nə axmaq sözdür! Tərslikdən əl çək. Yoxsa səni dişlərəm. Sənin çox gözəl ərin olacaq! Elə qara məxmər heç kraliçada da yoxdur. Onun bütün anbarları, zirzəmiləri dolub daşır. Allaha şükür elə ki, sənə belə ər qismət olub!

Axır ki, toy günü gəlib çatdı. Kostəbək gəlinin dalınca gəldi ki, onu öz yanına, yerin lap altına aparsın; ora heç azacıq da gün işığı düşmürdü, çünki köstəbəyin gün işığından zəhləsi gedirdi. Yazıq qızcığaz üçün gözəl günəşdən həmişəlik ayrılmaq çox çətin idi. Buna görə də o, çöl siçanından icazə alıb, sonuncu dəfə günəşə tamaşa etmək üçün yuvadan çıxdı.

- Əlvida, ey gözəl günəş! deyib Düyməcik yuvanın ağzında durdu və əllərini yuxarı qaldırdı. Bir az sonra o, çölə tərəf getdi. Buradan taxılı daha biçmişdilər, yerdə ancaq quru saman çöpləri qalmışdı. Sənə də əlvida, - deyib Düyməcik salamat qalmış qırmızı bir çiçəyi qucaqladı. Əziz qaranquşu görsən, məndən ona salam yetirərsən.

Birdən hardansa başının üstündən bir səs eşitdi:

- Civ-civ, civ-civ!

Düyməcik gözlərini yuxarı qaldırıb, yanından ötən qaranquşu gördü. Quş Düyməciyi tanıyıb çox sevindi, qız da ağlaya-ağlaya ona danışdı ki, kifir köstəbəyə ərə getməyi və gün işığı düşməyən yer altında yaşamağı heç istəmir.

Qaranquş dedi:

- Soyuq qış yaxınlaşır. Mən uçub uzaqlara, isti ölkələrə gedirəm. Sən də mənimlə getmək istəyirsənmi? Belimə min, ancaq kəmərlə özünü möhkəm bağla. Biz sənin bir yerdə bu iyrənc köstəbəkdən və onun qaranlıq yeraltı yuvasından çox-çox uzaqlara uçarıq. Dağların üstündən aşıb, isti ölkələrə gedərik, orada günəş buradakından daha çox işıq saçır. Orada bütün ili yaydır və gözəl çiçəklər açmışdır. Ey əziz Düyməcik, gəl mənimlə uçub gedək! Axı, mən qaranlıq, soyuq torpaq içində donub qalanda sən məni xilas eləmisən.

Düyməcik dedi:

- Hə, yaxşı, mən də sənin lə uçub gedərəm!

Düyməcik quşun belinə mindi. Xırdaca ayaqlarını onun açılmış qanadlarına dirədi və kəməri ilə özünü quşun ən iri lələyinə bağladı. Qaranquş ox kimi havaya qalxdı, meşənin, dənizin, uca qarlı dağların üstündən aşıb getdi. Düyməcik yaman üşüdü. O, qaranquşun isti tüklərinə qısıldı, ancaq başını



çıxardı ki, üzərindən uçduqları yerlərin gözəlliklərinə tamaşa etsin.

Axır ki, onlar gəlib isti ölkələrə çatdılar. Burada günəş bizim yerdə olduğundan çox-çox parlaq işıq saçırdı, göy isə ikiqat, uca idi. Çəpərlərin dibində qara üzüm tənəkləri bitmişdi. Meşələrdə portağal və lumu yetişməkdə idi. Hər yanı mərsin və nanə qoxusu bürümüşdü. Cığırlarda şən uşaqlar yüyürüşür, iri ala-bəzək kəpənəkləri tuturdular. Ancaq qaranquş hələ də uçurdu, üzərindən uçduğu yerlər də indi daha gözəldi. Gömgöy bir gölün qırağında mərmərləri parıldayan qədim bir saray vardı. Onun dövrəsini qol-budaqlı yaşıl ağaclar bürümüşdü. Sarayın uca sütunlarına tənəklər sarmaşmışdı, lap yuxarıda, tavanın altında isə qaranquş yuvaları vardı. Düyməciyi gətirib gələn qaranquş da bu yuvalardan birində olurdu.

Qaranquş dedi:

- Bax, bu da mənim evim! Sən də aşağıda özünə ən gözəl çiçəyi seç. Mən səni o çiçək bitdiyi yerə aparım, sən də orada yaşa. Ora sənin üçün çox rahat olar.

Qızcığaz xırdaca əllərini bir-birinə vurub səsləndi:

- Ah, nə gözəldir!

Aşağıda böyük sınıq bir mərmər sütun vardı. Yerə düşüb üç parça olmuşdu. Qırıqlarının arasında gözəl, iri ağ çiçəklər bitmişdi. Qaranquş Düyməciyi bu çiçəklərdən birinin iri ləçəyinin üstünə qoydu. Amma nə qəribə işdir: çiçəyin kasacığının içində boyca Düyməcikdən böyük olmayan xırdaca bir adam oturmuşdu. Özü də par-par parıldayırdı, elə bil ki, büllurdandı! Başında gözəl bir qızıl tac vardı. Çiyinlərində isə parlaq qanadlar işıldayırdı. Bu, bir pəri oğlu idi. Hər çiçəyin içində bu cür pərilər vardı, bu da onların krallarının oğlu idi.

Düyməcik pıçıltı ilə qaranquşa dedi:

- Ay aman, o nə gözəldir!

Qaranquş uçub çiçəyə sarı getdi, xırdaca şahzadə oğlan yaman qorxdu. Axı, qaranquşa görə o lap xırdaca və zəif idi. Amma şahzadə Düymənciyi görəndə lap donub qaldı: o ömründə belə qəşəng qız görməmişdi. Xırdaca şahzadə öz tacını başından götürüb Düymənciyin başına qoydu, sonra onun adını xəbər aldı. Düymənciyin ona ərə getməyə və çiçəklərin kraliçası olmağa razı olub-olmadığını soruşdu. Bax, bu, əsl ərə getməli oğlandı! Bu daha qurbağanın oğlu və ya məxmər kürklü köstəbək deyildi. Buna görə də Düymənciyin gözəl şahzadəyə ərə getməyə razılıq verdi. Bütün çiçəklərin içindən oğlan və qız pərilər uçub gəldilər. Bunlar o qədər gözəldilər ki, Düymənciyin onlara baxıb ləzzət almaqdan doymurdu. Onların hər biri gəlinə hədiyyə gətirmişdi. Bu hədiyyələrdən ona ən çox xoş gələn böyük bir cırcıramanın zər qanadları idi. Bu qanadları Düymənciyin çiyinlərinə taxdılar, indi o da çiçəkdən-çiçəyə uça bilirdi. Bax, şənlik buna deyərlər! Qaranquş yuxarıda öz yuvasında oturmuşdu. Ondan xahiş etdilər ki, toy mahnısı oxusun, o bacardıqca yaxşı oxumağa çalışdı, amma ürəyində dərd çəkirdi. Çünki Düymənciyi sevirdi və ondan ayrılmaq istəmirdi.

Şahzadə oğlan Düymənciyə dedi:

- Sənin adın daha Düymənciyik olmayacaq, bu ad gözəl deyil, amma sən özün çox qəşəngsən! Qoy adın Maya olsun!

- Salamat qal, salamat qal! deyib dərdli qaranquş uçub uzaq ölkələrdən öz vətəninə, uzaq Danimarkaya getdi. Onun orada yuvası vardı. Bu yuva nağıl danışmağı bacaran bir adamın düz pəncərəsinin üstündə idi. O adam qaranquşun «Civ-civ, civ-civ» mahnısını eşitdi, biz də bu nağılı həmin adamdan öyrəndik.



H.X.ANDERSEN. **DÜYMƏCİK**. Nağıl. Azyaşlı uşaqlar və ibtidai sinif şagirdləri üçün vəsait.
Bakı: Çaşıoğlu, 2001.-12 s. Şəkilli

A 4702060105-459
082-01

© "Çaşıoğlu" nəşriyyatı, 2001

H.X.ANDERSEN

DÜYMƏCİK

Nağıl
Azyaşlı uşaqlar və ibtidai sinif şagirdləri üçün vəsait

Nəşriyyatın direktoru	E.A.Əliyev
Mətbəənin direktoru	S.O.Mustafayev
Redaktoru	Ə.Q.Quliyev
Texniki redaktoru və kompüter dizaynı	F.Z.Kərimov
Rəssam	A.Ələkbərov

Yığılmağa verilib 15.09.2001. Çapa imzalanıb 23.10.2001.
Formatı 60x90 1/8. Ş.ç.v. 1,5. Şərti rəng ottiski 6. Ofset çapı.
Sifariş № 185. Sayı 5000 nüsxə. Qiyməti müqavilə ilə.

"Çaşıoğlu" mətbəəsi
Bakı, M.Müşfiq küç. 2a.